QANUN № 01 (375), 2026, s. 52-62



**Quluzadə Tomris Azay qızı,**
Edinburq Universitetinin Hüquq və iqtisadiyyat fakültəsinin məzunu
E-mail: tomrisquluzade@gmail.com

**UOT: 349.3:613.22**
**DOI: https://doi.org/10.30546/2218-9130.041.2026.4017**

# AZƏRBAYCANDA ANA SÜDÜ İLƏ QİDALANMANIN AZALMASININ SƏBƏBLƏRİ: MAARİFLƏNDİRMƏ, İNSTİTUSİONAL DƏSTƏK VƏ HÜQUQİ TƏMİNAT SAHƏLƏRİNDƏ MÖVCUD OLAN PROBLEMLƏR

***Açar sözlər:*** *ana südü ilə qidalanma, anaların bilik səviyyəsi, iş yerində dəstək, ictimai münasibətlər, səhiyyə siyasəti, maarifləndirmə, qadın sağlamlığı.*

***Ключевые слова:*** *грудное вскармливание, осведомлённость матерей, поддержка на рабочем месте, общественное восприятие, политика здравоохранения, просвещение, здоровье женщин.*

***Keywords:*** *breastfeeding, maternal knowledge, workplace support, public attitudes, health policy, awareness, women's health.*

Ana südü ilə qidalanma ana və uşağın sağlamlığının qorunması baxımından sübut olunmuş üstünlüklərə malikdir. Tədqiqatlar ana südü ilə qidalanmanın körpələrdə qəfil körpə ölümü sindromu (SIDS) riskini azaltdığını, analar üçün isə bir sıra xroniki xəstəliklərin, o cümlədən endometrium xərçəngi, ürək-damar xəstəlikləri və 2-ci tip diabetin qarşısının alınmasına töhfə verdiyini göstərir [11][12][17][23][24]. Bu faktlar ana südü ilə qidalanmanı yalnız fərdi sağlamlıq məsələsi deyil, eyni zamanda ictimai səhiyyə və dövlət siyasəti baxımından əhəmiyyətli hüquqi tənzimləmə obyekti kimi çıxış etdirir.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) körpələrin ilk altı ay ərzində yalnız ana südü ilə qidalanmasını tövsiyə edir [5]. Azərbaycanda 3926 ev təsərrüfatında aparılmış Milli Qidalanma Sorğusuna əsasən, körpələrin yalnız 12 %-i həyatının ilk altı ayında yalnız ana südü ilə qidalanır [1]. Qlobal səviyyədə bu göstərici 38 % təşkil etdiyi üçün, Azərbaycanın göstəricisi əhəmiyyətli dərəcədə aşağı hesab olunur [25]. Bu fərq, ana südü ilə qidalanma davranışlarına təsir edən amillərin müəyyən edilməsinin vacibliyini vurğulayır.

Araşdırmalar ana südü ilə qidalanma barədə etibarlı və davamlı məlumatlara çıxışın anaların məlumatlı qərarvermə imkanlarını gücləndirdiyini və bunun əmizdirmənin başlanması və davamlılığına həlledici təsir göstərdiyini təsdiqləyir [4][10]. Bu yanaşma məlumatlılığın ana davranışına birbaşa təsir etdiyini və maarifləndirmənin

səhiyyə siyasətində əsas alət kimi çıxış etdiyini ortaya qoyur. Azərbaycan Respublikasında ana südünün təşviqi bu anlayışa uyğun olaraq normativ-hüquqi aktlarla dəstəklənir: "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Qanunun 4-cü maddəsi tibb müəssisələrinin analara ana südünün bioloji və psixoloji üstünlükləri barədə məlumat vermək öhdəliyini müəyyən edir, "Azərbaycan Respublikasında Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiya" isə ana südü ilə qidalanmanın təşviqini dövlət siyasətinin prioritet və strateji hədəfi kimi təsbit edir. Bu tədqiqat qeyd olunan normativ çərçivə fonunda Azərbaycanda ana südü ilə qidalanma üzrə təhsil və təşviqat tədbirlərinin miqyasını və onların ana südü ilə qidalanmanın potensial determinantı kimi rolunu qiymətləndirir.

İş şəraiti ana südü ilə qidalanmanın davam etdirilməsində mühüm rol oynayır. Birləşmiş Ərəb Əmirliklərində aparılmış tədqiqatda iştirakçıların 67,4 %-i əmizdirməni dayandırma səbəbi kimi işlə bağlı çətinlikləri göstərmişdir [4]. Bu çətinliklərə xüsusi laktasiya otaqlarının olmaması və əmizdirmə fasilələrinə imkan verməyən sərt iş qrafikləri daxildir [21]. Azərbaycanda da Əmək Məcəlləsinin 243 və 244-cü maddələrində əmizdirmə fasilələri ilə bağlı hüquqi müddəalar mövcud olsa da, işləyən analar üçün nəzərdə tutulmuş bu əmizdirmə fasilələri çox vaxt praktikada səmərəli şəkildə istifadə edilmir. Nəticədə analar qidalanma üçün fasilələrdən deyil, işdən daha erkən çıxmaq hüququndan istifadə edirlər ki, bu da laktasiya prosesinə mənfi təsir göstərir. Tədqiqat göstərir ki, hüquqi mexanizmlərin effektiv tətbiqi və iş yerlərində əmizdirmə üçün əlverişli şəraitin yaradılması, Azərbaycanda ana südü ilə qidalanma səviyyəsinə təsir edən əsas amillərdəndir.

Bundan əlavə, ana südü ilə qidalanmaya dair ictimai münasibətlər anaların davranışlarının formalaşmasında mühüm rol oynayır və əmizdirmə göstəricilərinə birbaşa təsir göstərir. İctimai yerlərdə əmizdirməyə qarşı mənfi münasibət anaları evdən kənarda ana südü ilə qidalandırmaqdan çəkindirir ki, bu da əmizdirmə tezliyinin azalmasına və ya onun vaxtından əvvəl dayandırılmasına səbəb olur [2]. Bu səbəbdən, tədqiqat ictimai yerlərdə ana südü ilə qidalanma ilə bağlı sosial maneələri araşdırmağı hədəfləyir.

**Metodologiya**

Tədqiqatın hədəf qrupu Azərbaycanın paytaxtı Bakı şəhərində yaşayan 18 yaşdan yuxarı şəxslərdən ibarət idi. Bu yaş qrupu, ölkə qanunvericiliyinə əsasən, tam mülki hüquq qabiliyyətinə malik fərdləri təmsil edir. Nümunə həm qadınları, həm də kişiləri əhatə edərək ana südü ilə qidalanma təcrübələrinə dair müxtəlif sosial baxış bucaqlarını əks etdirmişdir.

Sorğu sualları Azərbaycan dilində hazırlanmış və yerli kontekstə uyğunlaşdırılmışdır. İBir xəstəxana, iki məktəb, iki sosial media kanalı və bir universitet sorğuda iştirak etməyə razılıq vermişdir. Sorğu həmçinin yüzdən çox QHT-nin daxil olduğu WhatsApp qrupları vasitəsilə də yayılmışdır.

Onlayn sorğu 2020-ci ilin oktyabrından 2021-ci ilin fevralınadək aparılmışdır. Tədqiqatda iştirak etməzdən əvvəl bütün iştirakçılardan razılıq alınmış və tədqiqatın məqsədi barədə məlumat verilmişdir. İştirakçıların anonimliyi və məxfiliyi təmin olunmuşdur.

Sorğuda iştirakçılardan ana südü ilə qidalanma barədə bilik və təsəvvürləri, məlumat mənbələri ilə bağlı təcrübələri barədə məlumat toplanmışdır. İşlədiklərini bildirən 188 iştirakçıya iş yerində əmizdirmə şəraiti, fasilələr, xüsusi otaqlar, laktasiya proqramları və müvafiq qanunvericiliklə tanışlıq barədə əlavə suallar təqdim edilmişdir.

**Sorğunun nəticələri**

Respondentlərin demoqrafik göstəriciləri (Cədvəl 1) göstərir ki, iştirakçıların əksəriyyəti 18–25 yaş aralığındakı gənclərdən ibarətdir (n = 311; 57,1 %). İştirakçıların çoxu subay (n =

338; 62,0 %) və bakalavr təhsilli (n = 426; 78,2 %) qrupuna daxildir. Nəticələr göstərir ki, sorğu daha çox ali təhsil mərhələsində və ya karyerasının başlanğıcında olan gənclər tərəfindən cavablandırılıb. Güman olunur ki, bu nəticələr sorğunun sosial media platformaları və universitet şəbəkələri üzərindən paylaşılması ilə əlaqədardır. Respondentlərin çoxu qadın idi (n = 489; 89,7 %), bu da tədqiqatın ana südü ilə qidalanma və qadın sağlamlığı kimi mövzularla əlaqəli olmasından irəli gəlir.

2020-ci ilin yanvar–sentyabr ayları ərzində Azərbaycanda orta aylıq əməkhaqqı 706,6 AZN (təxminən 415,6 ABŞ dolları) təşkil etmişdir [6]. Respondentlərin əksəriyyəti (n = 96; 50,8 %) orta aylıq əməkhaqqı göstəricisindən daha az gəlir əldə etdiklərini bildirmişlər (0–499 AZN; təxminən 0–294 ABŞ dolları). Bu iştirakçıların, böyük ehtimalla, işsiz və ya təhsilini davam etdirən gənclər olduqları qənaətinə gəlmək olar. Tədqiqat nümunəsinin nisbətən kiçik bir hissəsini məşğul şəxslər təşkil etmişdir (n = 189; 34,7 %). Onlar arasında tibb sahəsində (n = 63; 33,3 %), təhsil sektorunda (n = 46; 24,3 %) və dövlət idarələrində (n = 36; 19,0 %) çalışan respondentlər üstünlük təşkil etmişdir. Bu bölgü, tədqiqatın xəstəxanalar, məktəblər, universitetlər və qeyri-hökumət təşkilatları vasitəsilə yayılması ilə əlaqədar olaraq iştirakçıların peşə tərkibinə təsir göstərmiş ola bilər.

**Cədvəl 1: Respondentlərin demoqrafik xüsusiyyətləri**

| **Xarakterik** | **n (%)** |
|---|---|
| **Yaş** | |
| 18-25 | 311 (57,1%) |
| 26–35 | 126 (23,1%) |
| 36–45 | 62 (11,4%) |
| 46–55 | 30 (5,5%) |
| 56+ | 16 (2,9%) |
| **Cins** | |
| Qadın | 563 (89,7%) |
| Kişi | 65 (10,3%) |
| **Ailə vəziyyəti** | |
| Evli | 207 (38,0%) |
| Subay | 338 (62,0%) |
| **Təhsil** | |
| Orta məktəb | 39 (7,2%) |
| Bakalavr dərəcəsi | 426 (78,2%) |
| Magistr dərəcəsi | 68 (12,5%) |
| Doktorantura (PhD) | 12 (2,2%) |
| **Məşğulluq vəziyyəti** | |
| İşlədi | 189 (34,7%) |
| İşsiz | 356 (65,3%) |
| **Aylıq gəlir (AZN)** | |
| Cavab yoxdur | 9 (4,8%) |
| 0–499 | 96 (50,8%) |
| 500–999 | 51 (27,0%) |
| 1000–4999 | 29 (15,3%) |
| 5000+ | 4 (2,1%) |

| **İş sahəsi** | |
|---|---|
| Tibb | 63 (33,3%) |
| Təhsil | 46 (24,3%) |
| Dövlət sektoru | 36 (19,0%) |
| Marketinq və reklam | 8 (4,2%) |
| QHT / İctimai təşkilat | 8 (4,2%) |
| Texniki sahə | 6 (3,2%) |
| Qida sektoru | 6 (3,2%) |
| Fərdi sahibkar | 5 (2,6%) |
| Biznes | 5 (2,6%) |
| Tikinti | 3 (1,6%) |
| Hüquq | 2 (1,1%) |
| Jurnalistika | 1 (0,5%) |

Araşdırmanın nəticələri göstərir ki, iştirakçıların böyük əksəriyyəti ana südü ilə qidalanmanın körpələrin immun sisteminə müsbət təsir göstərdiyini (91,7 %; n = 498) qəbul etmişdir. Bununla yanaşı, 68,0 % (n = 369) respondent ana südünün döş xərçəngi riskini azaltdığını, 26,3 % (n = 143) isə qəfil körpə ölümü sindromunun (SIDS) qarşısının alınmasında mühüm rol oynadığını bildirmişdir. Bu göstəricilər iştirakçılar arasında ana südü ilə qidalanmanın sağlamlıq faydaları barədə bilik səviyyəsində fərqlərin mövcudluğunu əks etdirir.

Respondentlərin əksəriyyəti (92,1 %; n = 502) ana südünü süni qidalardan daha üstün hesab etmiş, heç bir iştirakçı formula üstünlük verməmişdir. İdeal ana südü ilə qidalanma müddəti ilə bağlı fikirlər isə dəyişkən olmuşdur: 42,8 % (n = 233) 1–2 illik, 34,5 % (n = 188) isə 6 ay–1 il aralığında qidalanma dövrünü daha məqsədəuyğun hesab etmişdir. Bu nəticələr, iştirakçılar arasında ana südü ilə qidalanmanın optimal müddəti barədə yekdil fikir formalaşmadığını göstərir.

**Cədvəl 2: Ana südü ilə qidalanma haqqında məlumat**

| **Xarakterik** | **n (%)** |
|---|---|
| **Ana südü ilə qidalanma haqqında biliklər** | |
| Ana südü körpələrin immun sistemini gücləndirir | 498 (91,7%) |
| Ana südü analarda döş xərçəngi riskini azaldır | 369 (68,0%) |
| Ana südü uşaqlarda ürək və yoluxucu xəstəliklərin qarşısını alır | 310 (57,1%) |
| Ana südü ani körpə ölümü sindromunun qarşısını alır (SIDS) | 143 (26,3%) |
| Ana südü analarda ürək xəstəliklərinin və şəkər xəstəliyinin qarşısını alır | 114 (21,0%) |
| Yuxarıdakıların heç biri | 12 (2,2%) |
| **Hansı daha üstündür?** | |
| Ana südü | 502 (92,1%) |
| Hər ikisi | 38 (7,0%) |
| Formula | 2 (0,4%) |
| Əmin deyiləm | 3 (0,6%) |
| **Əmizdirmə üçün optimal müddət** | |
| 3 ay | 6 (1,1%) |

| | |
|---|---|
| 3-6 ay | 73 (13,4%) |
| 6-12 ay | 188 (34,5%) |
| 1-2 il | 233 (42,8%) |
| 2 ildən çoxdur | 45 (8,3%) |

Nümunə üzrə respondentlərin 54,7 %-i (n = 298) ana südü ilə qidalanmanın təşviqi mesajlarını sosial media vasitəsilə, 34,5 %-i (n = 188) isə xəstəxanalarda yerləşdirilmiş plakatlar və maarifləndirici bukletlər vasitəsilə almışdır. Bu nəticə, sorğunun sosial şəbəkələrdə paylaşılması və tədqiqatda bir xəstəxananın iştirak etməsi ilə əlaqədar ola bilər. Qeyd olunmalıdır ki, respondentlərin 16,7 %-i (n = 91) göstərilən heç bir mənbədən məlumat və ya təşviqat mesajı almadığını bildirmişdir.

Respondentlərin əksəriyyəti (72,5 %; n = 137) hər hansı Laktasiyaya Dəstək Proqramı haqqında məlumatlı olmadığını, 65,1 %-i (n = 123) isə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 244-cü maddəsi ilə tanış olmadığını qeyd etmişdir. Həmin maddəyə əsasən, süd verən analara hər üç saatdan bir 30 dəqiqəlik fasilə verilməsi nəzərdə tutulur.

**Cədvəl 3: Ana südü ilə qidalanmanın təşviqi**

| **Xarakterik** | **n(%)** |
|---|---|
| Sosial media | 298 (54,7%) |
| Xəstəxana plakatlar və vərəqələr | 188 (34,5%) |
| TV/radio | 184 (33,8%) |
| Çap mediası (qəzetlər, jurnallar) | 153 (28,1%) |
| Heç biri | 91 (16,7%) |
| **İş yerində laktasiyaya dəstək proqramı haqqında məlumatlılıq** | |
| Xeyr | 137 (72,5%) |
| Qismən | 12 (6,3%) |
| Bəli | 40 (21,2%) |
| **Əmək Məcəlləsi, maddə 244** | |
| Bəli | 66 (34,9%) |
| Xeyr | 123 (65,1%) |

Araşdırmanın nəticələri göstərir ki, iş yerlərində əmizdirməyə və süd sağıma sahəsində institusional dəstək hələ də məhdud miqyasdadır. Respondentlərin 43,1 %-i (n = 81) iş yerlərində belə şəraitin mövcud olmadığını, 16,5 %-i (n = 31) isə bu cür imkanların olub-olmadığından xəbərsiz olduğunu bildirmişdir.

Əksər iştirakçılar (53,3 %; n = 98) əmizdirmə və ya süd sağıma məqsədilə xüsusi laktasiya otaqlarından istifadə etdiklərini qeyd etmişdir. Digər respondentlər isə görüş otaqlarından (7,1 %; n = 13), saxlama otaqlarından (7,6 %; n = 14) və ya digər qapalı otaqlardan (11,4 %; n = 21) istifadə etdiklərini bildirmişdir. Bu göstərir ki, bir çox iş yerlərində analar üçün ayrılmış xüsusi və standartlaşdırılmış yerlər mövcud deyil və mövcud imkanlar adətən qeyri-rəsmi və müvəqqəti xarakter daşıyır.

Respondentlərin yarıdan çoxu (51,6 %; n = 97) iş yerində əmizdirmə və ya süd sağıma üçün fasilələrin verilib-verilmədiyindən xəbərsiz olduğunu qeyd etmişdir. Bu göstərici işçi analar arasında əmək qanunvericiliyində nəzərdə tutulan hüquqlar barədə məlumatlılığın kifayət qədər aşağı səviyyədə olduğunu, eyni zamanda işəgötürənlər tərəfindən əmizdirməyə dəstək tədbirlərinin qeyri-sistematik xarakter daşıdığını göstərir. Ümumilikdə, nəticələr Azərbaycanda iş yerlərində əmizdirmə üçün şəraitin və dəstək mexanizmlərinin gücləndirilməsinə ehtiyac olduğunu vurğulayır.

**Cədvəl 4: İş yerlərində ana südü ilə qidalanma mühiti**

| Xarakterik | n (%) |
|---|---|
| **İş yerində ana südü ilə qidalanmanın dəstəklənməsi şərtləri** | |
| Heç biri | 81 (43,1%) |
| Bilmirəm | 31 (16,5%) |
| Yalnız süd saxlama | 9 (4,8%) |
| Yalnız laktasiya otağı | 23 (12,2%) |
| Yalnız laktasiya fasiləsi | 13 (6,9%) |
| Laktasiya fasiləsi və süd saxlama | 15 (8,0%) |
| Laktasiya fasiləsi və laktasiya otağı | 7 (3,7%) |
| Hər üçü (Laktasiya fasiləsi, otağı, süd saxlama) | 9 (4,8%) |
| **İş yerlərində laktasiya üçün istifadə olunan otaqlar** | |
| Otaq yoxdur | 24 (13,0%) |
| Bilmirəm | 9 (4,9%) |
| İstənilən qapalı otaq | 21 (11,4%) |
| Tualet | 3 (1,6%) |
| Saxlama otağı | 14 (7,6%) |
| Mətbəx | 2 (1,1%) |
| İclas otağı | 13 (7,1%) |
| Laktasiya otağı | 98 (53,3%) |
| **Ana südü ilə qidalanma fasilələrinə icazə verilirmi?** | |
| Bəli | 75 (39,9%) |
| Xeyr | 16 (8,5%) |
| Bilmirəm | 97 (51,6%) |

Cədvəl 5-in nəticələrinə əsasən, respondentlərin 56,1 %-i (n = 306) ictimai yerlərdə ana südü ilə qidalanmanı məqbul hesab etmişdir.

Ana südü ilə qidalanmanı ictimai yerlərdə məqbul hesab edən respondentlər bu davranışı əsasən körpənin təbii ehtiyaclarının qarşılanması (65,0 %; n = 199) və bu prosesin təbii olması (25,5 %; n = 78) ilə izah etmişlər. Həmçinin bəzi iştirakçılar (24,5 %; n = 75) körpənin ehtiyaclarının ictimai norma və fikirlərdən üstün tutulmasının vacibliyini vurğulamışlar. Bu nəticələr, cəmiyyətin müəyyən bir hissəsində ictimai yerlərdə ana südü ilə qidalanmaya daha tolerant və uşaq rifahına yönəlik baxışın formalaşdığını göstərir.

Digər tərəfdən, ictimai yerlərdə ana südü ilə qidalanmanı qəbuledilməz sayan respondentlər, 43,9 %-i (n = 239), bu davranışı ictimai şəraitə uyğun hesab etməmiş (38,9 %; n = 93), ənənəvi dəyərlərlə ziddiyyət təşkil etdiyini (23,8 %; n = 57) və etik baxımdan münasib olmadığını (20,1 %; n = 48) bildirmişlər. Bu yanaşma, müəyyən respondent qrupları arasında ictimai norma və mədəni dəyərlərin əmizdirmə təcrübəsinə təsirini göstərir.

**Cədvəl 5: İctimai yerlərdə ana südü ilə qidalanmaya münasibət**

| Xarakterik | n(%) |
|---|---|
| **İctimai yerlərdə ana südü ilə qidalandırmaq məqbul sayılırmı?** | |
| Bəli | 306 (56,1%) |
| Xeyr | 239 (43,9%) |

| | |
|---|---|
| **İctimai yerlərdə ana südü ilə qidalanmanı məqbul hesab edənlər** | |
| Körpənin təbii ehtiyacıdır və bu ehtiyac təmin olmalıdır | 199 (65,0%) |
| Ana və uşağın hüququdur | 22 (7,2%) |
| Dini baxımdan da vacibdir | 9 (2,9%) |
| Təbii və normal haldır və ayıb bir şey yoxdur | 78 (25,5%) |
| Əsas vacib olan körpə və onun ehtiyaclarıdır fərqli düşüncələr yox | 75 (24,5%) |
| Uşağı ac saxlamaq olmaz | 42 (13,7%) |
| Məqbuldur amma mümkün qədər uyğun şərait olmalıdır | 16 (5,2%) |
| Məqbuldur | 23 (7,5%) |
| **İctimai yerlərdə ana südü ilə qidalanmanı məqbul hesab etməyənlər** | |
| İctimai yerdir, belə yerdə uyğun deyil | 93 (38,9%) |
| Mentalitet-milli dəyərlərə ziddir | 57 (23,8%) |
| Etik deyil | 48 (20,1%) |
| Ayıbdır | 20 (8,4%) |
| Qadın utana bilər | 18 (7,5%) |
| İnsanların niyyəti reaksiyası | 16 (6,7%) |
| Gigiyenik cəhətdən uyğun olmaya bilər | 21 (8,8%) |
| Alternativ yollardan istifadə | 24 (10,0%) |
| Ana ictimai yerlərə getməsin | 24 (10,0%) |

## Müzakirə

Sorğunun nəticələri respondentlərin əksəriyyətinin ana südü ilə qidalanmanı süni qidalardan üstün hesab etdiyini və onun körpələrin immun sisteminin gücləndirilməsi, eləcə də süd vəzi xərçəngi riskinin azaldılması ilə bağlı əsas faydaları barədə məlumatlı olduğunu göstərir. Bununla yanaşı, respondentlərin yalnız məhdud bir hissəsi ana südü ilə qidalanmanın şəkərli diabet, ürək-damar xəstəlikləri və qəfil körpə ölümü sindromu (SIDS) ilə bağlı qoruyucu təsirini qeyd etmişdir ki, bu da mövcud maarifləndirmə mexanizmlərində məzmun boşluqlarının olduğunu göstərir. Oxşar nəticələr Küveyt, Pakistan, Malayziya, Misir və Qətər kimi ölkələrdə aparılmış tədqiqatlarda da müşahidə edilmişdir [7][9][13][14][19].

Eyni zamanda, iştirakçıların cəmi 8,0 faizi Ümumdünya Səhiyyə Təşkilatının körpələrin 24 aya qədər və ya daha uzun müddət ana südü ilə qidalandırılmasına dair tövsiyələrindən xəbərdar olduğunu bildirmişdir ki, bu göstərici Küveytdə aparılmış oxşar tədqiqatda müəyyən edilmiş səviyyədən (23,5 %) əhəmiyyətli dərəcədə aşağıdır [9]. Bu nəticələr UNICEF-in dəstəyi ilə həyata keçirilən ana südü ilə qidalanmanın təşviqi üzrə kampaniyalarda iştirak edən mütəxəssislərin müşahidələri ilə üst-üstə düşür və həm tibb işçiləri, həm də ailələr arasında ÜST tövsiyələrinin məzmunu və praktik tətbiqi barədə məlumatlılığın yetərli olmadığını göstərir [22]. Göstərilən hallar "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Qanunun 4-cü maddəsi ilə tibb müəssisələrinə həvalə edilmiş anaların ana südünün bioloji və psixoloji üstünlükləri barədə məlumatlandırılması öhdəliyinin faktiki icrasında mövcud boşluqları üzə çıxarır.

Sorğunun nəticələrinə əsasən, ana südü ilə qidalanma barədə məlumatların əsas mənbəyi

sosial media olmuşdur ki, bu tapıntı Qətərdə aparılmış oxşar tədqiqatların nəticələri ilə uyğunluq təşkil edir [7]. Respondentlərin bir qismi xəstəxanalarda yerləşdirilmiş maarifləndirici vərəqələr və plakatları, eləcə də televiziya və radio proqramlarını informasiya mənbəyi kimi göstərmişdir. Bununla belə, hazırkı tədqiqatın sosial media kanalları və xəstəxanalar vasitəsilə yayılması bu mənbələrin nəticələrdə nisbətən daha çox təmsil olunmasına təsir göstərmiş ola bilər.

Sosial media platformaları yüksək əlçatanlıq və geniş əhatə imkanları təqdim etsə də, əvvəlki tədqiqatlar bu mühitdə yayılan dezinformasiya, ana südü ilə qidalanma çətinliklərinin qeyri-dəqiq təqdimatı və süni qidalanmanın dolayı təbliği risklərini vurğulamışdır. Belə məzmun anaların məlumatlı qərarvermə hüququna, inam səviyyəsinə və ana südü ilə qidalanma davranışlarına mənfi təsir göstərə bilər [18]. Əlavə olaraq, iştirakçıların 15,0 faizi ana südü ilə qidalanma ilə bağlı heç bir reklam və ya maarifləndirici mesaj almadığını bildirmişdir. Bu nəticələr ana südü ilə qidalanmanın təşviqində, xüsusilə səhiyyə işçiləri və tənzimlənən media platformaları vasitəsilə yayılan məlumatların keyfiyyətinin və əhatə dairəsinin gücləndirilməsinin hüquqi baxımdan vacibliyini göstərir.

Tədqiqatın nəticələri iş yerlərində süd verən analar üçün dəstək mexanizmlərinin yetərincə inkişaf etmədiyini göstərir. Əmizdirməyə uyğun infrastrukturun, o cümlədən laktasiya otaqlarının, südün saxlanması üçün şəraitin və dəstək proqramlarının olmaması Pakistanda aparılmış oxşar tədqiqatlarla uyğunluq təşkil edir [20] və bu vəziyyət iş yerlərində laktasiya şəraitinin yaradılmasını açıq şəkildə tələb edən xüsusi qanunvericilik normalarının və məcburi tənzimləyici mexanizmlərin olmaması ilə əlaqələndirilə bilər. Eyni zamanda, respondentlər arasında iş vaxtı ərzində əmizdirmə və ya süd sağıma fasilələrindən istifadə hüququ barədə məlumatlılığın aşağı olması, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş hüquqların praktik tətbiqində icra boşluqlarının mövcudluğunu göstərir. Ümumilikdə, bu nəticələr iş yerlərində əmizdirmə üçün şəraitin yaxşılaşdırılması, müvafiq qanunvericilik bazasının gücləndirilməsi və məlumatlılığın artırılması istiqamətində sistemli tədbirlərin görülməsinin zəruriliyini ortaya qoyur.

Araşdırmanın nəticələri göstərir ki, iştirakçıların təxminən 44 faizi ictimai yerlərdə ana südü ilə qidalanma ilə bağlı narahatlıq ifadə etmişdir. Bu göstərici Nyu-Yorkda aparılmış tədqiqatda qeydə alınmış səviyyəyə (50,4 %) yaxın, Qanadakı oxşar araşdırmada müəyyən edilmiş göstəricidən (26 %) isə yüksək olmuşdur [15] [8]. Respondentlərin əksəriyyəti ana südü ilə qidalanmanı təbii və uşağın sağlam inkişafı üçün zəruri proses kimi qiymətləndirsə də, bu yanaşma ictimai yerlərdə əmizdirməyə rahat münasibətin formalaşması üçün kifayət etməmişdir. Bir çox iştirakçı ictimai şəraitdə əmizdirməni sosial ədəb normaları, mənəvi dəyərlər və ictimai qınaq qorxusu səbəbindən narahatlıq doğuran, bəzən isə etik baxımdan uyğun olmayan davranış kimi dəyərləndirmişdir.

Oxşar müşahidələr Malayziya və Türkiyədə aparılmış tədqiqatlarda da qeydə alınmışdır ki, bu, mədəni və sosial dəyərlərin ana südü ilə qidalanmaya münasibətin formalaşmasında mühüm rol oynadığını göstərir [2]. Araşdırma ictimai narahatlığın əsasən döşün qidalandırıcı funksiyasından deyil, onun cinsi obyekt kimi qavranılmasından qaynaqlandığını ortaya qoyur və bu, ana südü ilə qidalanmanın təbii mahiyyətinin kölgədə qalmasına, analar arasında sosial təzyiq qorxusunun artmasına səbəb olur. Nəticədə, anaların çoxu ana südü ilə qidalanmanı dəstəkləsə də, ictimai yerlərdə bu davranışdan çəkinir.

Eyni zamanda, dini baxışlar daha anlayışlı mövqe nümayiş etdirmiş, bəzi iştirakçılar uşağın ac qalmasının dini baxımdan yolverilməz oldu-

ğunu vurğulamışdır. Bu fərq ana südü ilə qidalanmanın dini çərçivədə məqbul davranış kimi təqdim olunması üçün imkan yaradır. Praktikada bir çox ana ictimai yerlərdə əmizdirmədən çəkinərək xüsusi məkanlara və ya laktasiya otaqlarına üstünlük verir, bəziləri isə örtüklərdən istifadə etdiklərini qeyd etmişdir [16]. Bununla belə, respondentlər ana südü ilə qidalanma qərarının başqalarının münasibətindən asılı olmamalı olduğunu bildirmiş, oxşar nəticələr Malayziyada aparılmış tədqiqatlarda da müşahidə olunmuşdur [3].

İctimai yerlərdə ana südü ilə qidalanma hüquqla qorunan davranışdır və bu hüquqa qarşı yönəlmiş müdaxilə, təzyiq və ya təhqir halları qanunsuz hesab olunur və halların xarakterindən asılı olaraq hüquqi, o cümlədən cinayət məsuliyyəti yarada bilər. Bu yanaşma bir sıra ölkələrin qanunvericiliyində açıq şəkildə təsbit edilmişdir: ABŞ-ın bütün ştatlarında, Böyük Britaniyada (Equality Act 2010), Kanadada, Avstraliyada (Sex Discrimination Act 1984), İrlandiyada və Skandinaviya ölkələrində ictimai yerlərdə ana südü ilə qidalanma qorunan hüquq sayılır və ona müdaxilə ayrı-seçkilik kimi qiymətləndirilir. Bu baxımdan, anaların və uşaqların hüquqlarının effektiv müdafiəsi məqsədilə Azərbaycanda da ictimai yerlərdə ana südü ilə qidalanmanı açıq şəkildə qoruyan və bu hüquqa müdaxiləni qanunsuz hesab edən aydın hüquqi normanın qəbul edilməsi zəruridir.

## Məhdudiyyətlər

1. Məlumat toplama üsulu ilə bağlı təhrif ehtimalı:

Sorğunun əsasən xəstəxanalar və sosial media platformaları vasitəsilə yayılması məlumatların təmsilçilik səviyyəsinə təsir göstərə bilər. Belə paylanma həmin kanalların — xüsusilə səhiyyə işçilərinin və sosial mediada aktiv istifadəçilərin — tədqiqatda nisbətən çox təmsil olunmasına gətirib çıxarmışdır. Bu vəziyyət nəticələrin ümumiləşdirilmə imkanlarını məhdudlaşdıra və əhalinin daha az təmsil olunan qruplarının, o cümlədən kənd yerlərində yaşayan və ya aşağı gəlir səviyyəsinə malik anaların fikirlərinin tədqiqata daxil olma ehtimalını azalda bilər.

2. İştirakçıların bilik səviyyəsi ilə bağlı məhdudiyyət:

Sorğuda iştirak edənlərin bir hissəsinin tibb müəssisələrində çalışan və ya ana südü ilə qidalanmanın təşviqinə dair maarifləndirmə proqramlarında iştirak edən şəxslər olması, ümumi əhali ilə müqayisədə daha yüksək bilik səviyyəsinə malik bir nümunənin formalaşmasına səbəb olmuşdur. Bu hal, ana südü ilə qidalanma haqqında məlumatlılıq səviyyəsinin faktiki göstəricilərinin olduğundan bir qədər yüksək qiymətləndirilməsinə gətirib çıxara bilər.

3. Cins balansının qeyri-bərabərliyi:

Respondentlərin təxminən 90 %-nin qadın olması tədqiqatın nəticələrinin cinslərarası müqayisələr baxımından məhdud interpretasiya potensialına malik olmasına səbəb olmuşdur.

## Nəticə

Tədqiqat Azərbaycanda ana südü ilə qidalanmaya ümumi müsbət münasibətin mövcud olduğunu, lakin maarifləndirmə, institusional dəstək və hüquqi təminat sahələrində ciddi boşluqlar olduğunu göstərir. Məlumatlılığın əsasən sosial media üzərindən formalaşması, tibb müəssisələri və iş yerlərində mövcud hüquqi öhdəliklərin praktik icrasında çatışmazlıqlar, habelə ictimai yerlərdə sosial baryerlər anaların ana südü ilə qidalanma hüququndan tam istifadə etməsinə mane olur. Müqayisəli hüquqi təcrübə fonunda, ictimai yerlərdə ana südü ilə qidalanmanı açıq şəkildə qoruyan və bu hüquqa müdaxiləni qanunsuz hesab edən aydın hüquqi normanın Azərbaycanda da qəbul edilməsi zəruridir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**


1. Mollazadə, A. Milli Qidalanma Hesabatı. UNICEF Azərbaycan, 2015. https://www.unicef.org/azerbaijan/press-releases/national-report-nutrition-published

2. Aksu, A., Darğın, R.S., Küpelikılıç, G. Views, feelings, and thoughts of first-time mothers regarding breastfeeding in public: a qualitative study. International Breastfeeding Journal, 2025, 20: 46. https://doi.org/10.1186/s13006-025-00733-5

3. Aloysius, M., Syed Jamaludin, S.S. Breastfeeding in public: A study of attitudes and perception among Malay undergraduates in Universiti Sains Malaysia. Malaysian Journal of Society and Space, 2018, 14(4). doi: 10.17576/geo-2018-1404-17

4. Al Ketbi, M.I., Al Noman, S., Al Ali, A. və b. Knowledge, attitudes, and practices of breastfeeding among women visiting primary healthcare clinics on the island of Abu Dhabi, United Arab Emirates. International Breastfeeding Journal, 2018, 13: 26. https://doi.org/10.1186/s13006-018-0165-x

5. Butte, N.F., Lopez-Alarcon, M.G., Garza, C. Nutrient adequacy of exclusive breastfeeding for the term infant during the first six months of life. Geneva: World Health Organization, 2002.

6. CEIC Data. Azerbaijan Average Monthly Salary: Statistical Classification of Economic Activities Rev 2. CEIC Data Platform. https://www.ceicdata.com/en/azerbaijan/average-monthly-salary-statistical-classification-of-economic-activities-rev-2/average-monthly-salary

7. Chaabna, N., Mahfoud, Z.R., Letourneau, N. və b. Unveiling breastfeeding knowledge among Muslim women in Qatar: an exploratory study. Discover Public Health, 2025, 22: 224. https://doi.org/10.1186/s12982-025-00567-w

8. Coomson, J.B., Aryeetey, R. Perception and practice of breastfeeding in public in an urban community in Accra, Ghana. International Breastfeeding Journal, 2018, 13(1). doi: 10.1186/s13006-018-0161-1

9. Ebrahim, B., Al-Enezi, H., Al-Turki, M., Al-Turki, A., Al-Rabah, F., Hammoud, M.S. və b. Knowledge, misconceptions, and future intentions towards breastfeeding among female university students in Kuwait. Journal of Human Lactation, 2011, 27(4): 358–366. doi: 10.1177/0890334411411163

10. Haroon, S., Das, J.K., Salam, R.A. və b. Breastfeeding promotion interventions and breastfeeding practices: a systematic review. BMC Public Health, 2013, 13 (Suppl 3): S20. https://doi.org/10.1186/1471-2458-13-S3-S20

11. Howie, P.W., Forsyth, J.S., Ogston, S.A., Clark, A., Florey, C.D. Protective effect of breastfeeding against infection. BMJ, 1990, 300 (6716): 11–16. doi: 10.1136/bmj.300.6716.11

12. Jordan, S.J., Na, R., Johnatty, S.E., Wise, L.A., Adami, H.O., Brinton, L.A. və b. Breastfeeding and endometrial cancer risk. Obstetrics & Gynecology, 2017, 129 (6): 1059–1067. doi: 10.1097/aog.0000000000002057

13. Juin, J., Mohd Ghazali, A.N. The Awareness About the Benefits and Practice of Breastfeeding Among Mothers in Pioneer Technology Malaysia Sdn. Bhd., Ledang, Johor, Malaysia. 2013.

14. Mohammed, E., Ghazawy, E., Hassan, E. Knowledge, attitude, and practices of breastfeeding and weaning among mothers of children up to 2 years old in a rural area in El-Minia Governorate, Egypt. Journal of Family Medicine and Primary Care, 2014, 3(2): 136. doi: 10.4103/2249-4863.137639

15. Mulready-Ward, C., Hackett, M. Perception and attitudes: Breastfeeding in public in New York City. Journal of Human Lactation, 2014, 30 (2): 195–200. doi: 10.1177/0890334414524988

16. Owens, N., Carter, S.K., Nordham, C.J., Ford, J.A. Neutralizing the maternal breast: Accounts of public breastfeeding by African American mothers. Journal of Family Issues, 2018, 39 (2): 430–450. https://doi.org/10.1177/0192513X16650229](https://doi.org/10.1177/0192513X16650229

17. Peters, S.A., Yang, L., Guo, Y., Chen, Y., Bian, Z., Du, J. və b. Breastfeeding and the risk of maternal cardiovascular disease: A prospective study of 300,000 Chinese women. Journal of the American Heart Association, 2017, 6 (6). doi: 10.1161/jaha.117.006081

18. Prashanth, G.P. Influence of social media on maternal decision-making and breastfeeding practices. World Journal of Clinical Pediatrics, 2024, 13 (4): 94755. doi: 10.5409/wjcp.v13.i4.94755

19. Rehman, R., Malik, F., Ul Z., Rehman, Z. Awareness of mothers regarding duration and benefits of breastfeeding. 2018.

20. Soomro, J.A., Shaikh, Z.N., Saheer, T.B. və b. Employers' perspective of workplace breastfeeding support in Karachi, Pakistan: a cross-sectional study. International Breastfeeding Journal, 2016, 11: 24. https://doi.org/10.1186/s13006-016-0084-7

21. Tsai, S.Y. Impact of a breastfeeding-friendly workplace on an employed mother's intention to continue breastfeeding after returning to work. Breastfeeding Medicine, 2013, 8 (2): 210–216. doi: 10.1089/bfm.2012.0119

22. UNICEF Europe and Central Asia. For every child in Azerbaijan: what we achieved together. UNICEF, 02 September 2025. https://www.unicef.org/eca/stories/every-child-azerbaijan-what-we-achieved-together

23. Victora, C.G., Bahl, R., Barros, A.J., França, G.V., Horton, S., Krasevec, J. və b. Breastfeeding in the 21st century: Epidemiology, mechanisms, and lifelong effect. The Lancet, 2016, 387 (10017): 475–490. doi: 10.1016/s0140-6736(15)01024-7

24. Vennemann, M.M., Bajanowski, T., Brinkmann, B., Jorch, G., Yücesan, K., Sauerland, C. və b. Does breastfeeding reduce the risk of sudden infant death syndrome? Pediatrics, 2009, 123 (3). doi: 10.1542/peds.2008-2145

25. WHO/UNICEF. Global nutrition targets 2025: Breastfeeding policy brief (WHO/NMH/NHD/14.7). Geneva: World Health Organization, 2014. https://www.who.int/publications/i/item/WHO-NMH-NHD-14.7

**Гулузада Томрис Азай гызы,**
выпускник факультета права и экономики Эдинбургского университета

## ПРИЧИНЫ СНИЖЕНИЯ ГРУДНОГО ВСКАРМЛИВАНИЯ В АЗЕРБАЙДЖАНЕ: ПРОБЛЕМЫ В ОБЛАСТИ ИНФОРМИРОВАНИЯ, ИНСТИТУЦИОНАЛЬНОЙ ПОДДЕРЖКИ И ПРАВОВОГО ОБЕСПЕЧЕНИЯ

### РЕЗЮМЕ

Данное исследование посвящено факторам, влияющим на грудное вскармливание в Азербайджане, и является первым системным исследованием, проведённым по этой теме в стране. Онлайн-опрос был проведён с октября 2020 года по февраль 2021 года среди 545 участников в возрасте от 18 лет и старше. Цель исследования заключалась в оценке уровня информированности о грудном вскармливании, эффективности просветительских мероприятий, уровня поддержки кормящих матерей на рабочих местах, а также общественного отношения к грудному вскармливанию. Снижение уровня грудного вскармливания в Азербайджане в основном обусловлено недостаточной информированностью населения, недостаточно развитой системой просвещения, отсутствием надлежащей поддержки кормящих матерей на рабочих местах и негативным восприятием грудного вскармливания в общественных местах.

**Guluzade Tomris Azay,**
Graduate of the Faculty of Law and Economics at the University of Edinburgh

## CAUSES OF DECREASED BREASTFEEDING IN AZERBAIJAN: ISSUES IN EDUCATION, INSTITUTIONAL SUPPORT, AND LEGAL FRAMEWORK

### SUMMARY

This study examines the factors influencing breastfeeding practices in Azerbaijan and represents the first systematic research conducted on this topic in the country. An online survey was carried out between October 2020 and February 2021 among 545 participants aged 18 and above. The aim was to assess the level of knowledge about breastfeeding, promotional activities, workplace support, and public attitudes. The decline in breastfeeding rates in Azerbaijan is mainly attributed to a lack of awareness, weak promotional efforts, insufficient workplace support, and negative perceptions toward breastfeeding in public.

**Redaksiyaya daxilolma tarixi: 08.12.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 15.12.2026**
**Çapa qəbul olunma tarixi: 22.12.2026**